Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Sərhəd toqquşmalarının əsl səbəbi və Ermənistanın yeni acı məğlubiyyəti üzə çıxdı

**Ötən ay Azərbaycan-Ermənistan sərhədində baş verən məlum toqquşmanın kökündə İrəvanın təxribatlarının dayanması barədə qeyd edilənlər artıq öz təsdiqini tapır. İndiyə qədər Ermənistan sərhəd toqquşmasının günahını Azərbaycan tərəfinin üzərinə yıxmağa çalışırdı. Amma Bakının əks arqumentləri İrəvana bu məqsədinə çatmağa imkan vermədi.**

Məhz belə bir vaxtda Rusiyanın xarici işlər naziri Sergey Lavrovun açıqlamaları günahın məhz Ermənistan tərəfində olduğunu tam təsdiqlədi.

### Lavrov İrəvanı pis vəziyyətdə qoydu

Rusiya xarici işlər nazirinin "Trud" qəzetinə müsahibəsində səsləndirdiyi fikirlərdən belə bəlli olur ki, sərhəd döyüşlərinin başlamasına əsas səbəb erməni tərəfinin mövqeyini irəli çəkmək niyyəti olub. Azərbaycan isə buna imkan verməyib və nəticədə məlum olaylar baş verib. Özü də 2016-cı ilin aprelində olduğu kimi bu dəfə də Ermənistanı Azərbaycanın əlindən Rusiya xilas edib. Hər halda, Lavrovun dedikləri də bunun əyani təsdiqidir.

Müsahibəsində qeyd edilən məqamlara toxunan Sergey Lavrov bildirir ki, iyulda Azərbaycan-Ermənistan sərhədində baş verən münaqişənin əsasında Dağlıq Qarabağ probleminin həll olunmaması dayanır. "Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsinin arxasında nə dayanır və bunun genişmiqyaslı hərbi münaqişəyə çevrilmək ehtimalı nə qədərdir", - sualına Rusiya XİN başçısı belə cavab verib:"İyulun 12-16-da baş verən sərhəd münaqişəsi bizim vasitəçiliyimizlə hazırlanan atəşkəs haqqında 1994-cü il sazişinin 2016-cı ilin aprel müharibəsindən sonra ikinci daha irimiqyaslı pozuntusu oldu. Bununla yanaşı, artilleriya, qumbaraatanlar və hücum dronlarının istifadə olunduğu yüksək intensivlikli toqquşmalar son 26 ildə ilk dəfə Qarabağda təmas xəttində deyil, birbaşa Azərbaycan-Ermənistan dövlət sərhədindəki məntəqədə baş verdi. Bir sıra kompleks səbəblər münaqişəyə gətirib çıxardı. Əlbəttə ki, bunun əsasında Qarabağ münaqişəsinin həll olunmaması dayanır. Üstəlik, sərhədin hər iki tərəfində ictimai məkanın həddindən çox qızışması... Çoğrafi amil də bir növ tətikləyici rol oynadı: Ermənistan tərəfinin Azərbaycanın ixrac boru kəmərlərindən 15 kilometr məsafədə yerləşən köhnə sərhədyanı Nəzarət Keçid Məntəqəsini yenidən bərpa etmək qərarı bir tərəfdə yüksək narahatlıq yaratdı, digər tərəfin cavab reaksiyası və yekunda ən gözlənilməz nəticələrlə qarşıdurma çarxını hərəkətə gətirdi. Vəziyyəti stabilləşdirmək üçün iyulun 13-də Rusiya XİN tərəflərə dərhal atəşi dayandırmaq çağırışı ilə müraciət etdi. Azərbaycan və Ermənistandan olan həmkarlarla telefon danışıqları apardı, Azərbaycan və erməni millətindən olan Rusiya vətəndaşlarını birləşdirən təşkilatların nümayəndələri ilə görüşdü. Hər iki diaspor həm Rusiya Federasiyasının qanunlarına əməl etmək, həm də Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına şərait yaratmağa kömək etmək üçün öz məsuliyyətlərini dərk etməlidir.

ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Popov bütün bu vaxt ərzində hər iki ölkənin xarici siyasət idarəsinin rəhbərləri ilə birbaşa əlaqədə olub. Nəticədə, Rusiyanın fəal vasitəçiliyi ilə, ilk cəhddə olmasa da, 16 iyulda atəşkəs əldə edildi". Lavrov avqust ayında vəziyyətin bir az stabilləşdiyini qeyd edib:"Sərhəddə və qoşunların təmas xəttində nisbi sakitlikdir. Qarşılıqlı ictimai ittihamlar azalıb. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesinin tezliklə bərpa olunacağına ümid edirik. ATƏT-in Minsk Qrupundakı tərəfdaşlarımızla birgə bunun üzərində işləyirik". Bu açıqlamadan bir daha görünür ki, sərhəd toqquşmalarının kökündə Ermənistanın Azərbaycanın ixrac boru kəmərlərindən 15 kilometr məsafədə yerləşən köhnə sərhədyanı Nəzarət Keçid Məntəqəsini yenidən bərpa etmək niyyəti dayanıb. Deməli, sərhəd toqquşmasını da məhz bu amil tətikləyib. Azərbaycan isə ixrac boru kəmərlərinə və Tovuz rayonuna yarana biləcək təhlükəni vaxtında neytrallaşdırmaq üçün Ermənistanın niyyətinin həyata keçməsinə imkan verməyib. Nəticədə erməni tərəfi Nəzarət Keçid Məntəqəsini yenidən bərpa etmək məqsədinə də çatmayıb. Deməli, Bakı məqsədinə çatıb, İrəvan isə yenə əliboş qalıb. Elə bu da sərhəd toqquşmalarının Azərbaycanın qələbəsi ilə yekunlaşmasının əyani təsdiqidir.

### Paşinyanın populist davranışı ona baha başa gəlir...

İndi maraq doğuran məsələ nədən Ermənistanın köhnə Nəzarət Keçid Məntəqəsini yenidən bərpa etmək məqsədi ilə bağlıdır. Ekspertlər bunu Azərbaycanın sərhəddəki uğurlarına Ermənistanın baş naziri Nikol Paşinyanın hansısa formada cavab cəhdləri ilə izah edir. Məlumdur ki, Azərbaycan Ermənistanla sərhəddə son dövrlərdə mövqeyini xeyli irəli çəkib. Qeyd edilən xüsusda ir neçə gün əvvəl Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev olduqca maraqlı açıqlamalar verdi. Onun sözlərinə görə, Ermənistan silahlı bölmələrinin sərhədboyu ərazidə təxribatlarının, həmin bölmələrin dəfələrlə öz döyüş mövqelərini dövlət sərhədinə doğru irəli çəkmə cəhdlərinin qarşısı qətiyyətlə alınıb:"Cavab tədbirləri nəticəsində dövlət sərhəd xəttinə 2000 metrə qədər məsafədə olan bir çox mövqelərimizi 1500-1700 metr irəli çıxarılması yaxınlıqdakı yaşayış məntəqələrimizin və magistral yolların, həmçinin şəxsi heyətin təhlükəsizliyini artırmağa, strateji cəhətdən əlverişli istiqamətlərdə yeni sərhəd döyüş məntəqələrinin yaradılmasına imkan vermişdir. Eyni zamanda düşmənin yaşayış məntəqələrinə, magistral yollarına və strateji əhəmiyyətli obyektlərinə nəzarət imkanları artırılmışdır".

Xidmət rəisi deyib ki, mühəndis işləri görən silahsız sərhədçilərimizə və mülki şəxslərə qarşı silah tətbiq etməkdən çəkinməyən namərd düşmənin bütün təxribatlarına sərhədçilərimiz tərəfindən layiqli cavab verilib, atəş nöqtələri susdurulub, hərbçiləri məhv edilib, düşmənin 5-6 qat artıq tələfat verməsinə nail olunub:"Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimadının göstəricisi olaraq Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsi dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsinin başlanğıcı olmaqla yanaşı, Lələtəpədən başlamış zəfər yürüşünün davamıdır. Cari ilin iyul ayının 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısı Silahlı Qüvvələrimiz tərəfindən qətiyyətlə alındı, əsgər və zabitlərimizin qəhrəmanlığı mənfur düşməni itki verərək geri çəkilməyə məcbur etdi". Beləliklə, ötən dövr ərzində Azərbaycan düşmənlə sərhəddə mövqelərini 1500-1700 metr irəli çıxarıb. Nəticədə düşmənin yaşayış məntəqələrinə, magistral yollarına və strateji əhəmiyyətli obyektlərinə nəzarət imkanları artırılıb. Çoxdandır bu istiqamətdə uğursuzluğa görə ittiham edilən Nikol Paşinyan isə Azərbaycan ixrac boru kəmərlərinə yaxın ola bilmək üçün köhnə Nəzarət Keçid Məntəqəsini yenidən bərpa etmək fikrinə düşüb. Bu ona Ermənistanda sürətlə düşən populyarlığını qismən də olsa bərpa etmək üçün lazım idi. Amma Azərbaycanın cavab tədbirləri Paşinyanın bu niyyətinin üzərindən xətt çəkdi.

### Düşmən bundan sonra da sərt cavab alacaq

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun yuxarıda qeyd edilən açıqlamasından həm də o bəlli olur ki, sərhəddə kifayət qədər sərt zərbələr alan İrəvanın dadına yenə Moskva yetişib. Məhz Rusiyanın aktiv vasitəçiliyi ilə sərhəd toqquşmaları dayanıb. Amma bu müddət ərzində Ermənistan olduqca ciddi zərbələr alıb. Ekspertlər hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli uzandığı halda Ermənistanın aldığı zərbələr daha sərt olacaq.

Digər tərəfdən münaqişənin dinc çözümünün uzanması da hadisələri məhz bu axarda inkişaf etdirir. Çünki, əvvəlki kimi, Ermənistan tərəfi hər zaman təxribatçı mövqeyi ilə Dağlıq Qarabağ probleminin həllini uzatmağa, status-kvonu saxlamağa çalışır. Lakin Azərbaycanın artıq bununla barışması qeyri-mümkündür və bu səbəbdən düşmənin istənilən təxribatına sərt cavab verilir. Məsələnin maraqlı tərəflərindən biri də odur ki, sərhəd təxribatlarından sonra Ermənistanda Paşinyana qarşı ittihamlar da artır. Rus ekspert Vladislav Şurıgin bunu təbii sayır və qeyd edir ki, məhz bu durumda Paşinyan sərhəddəki uğursuzluğu Rusiyanın üzərinə yıxmağa çalışır. O, hakimiyyətin nəzarətində olan media orqanlarında bunun açıq müşahidə edildiyini bildirir: "Ermənistan-Azərbaycan sərhədində məlum gərginliklə bağlı Ermənistan tərəfindən gözlənilmədən Rusiyanın ünvanına ittihamlar səsləndi. Ermənilər iddia etməyə başladı ki, ruslar erməni xalqını satır və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində öhdəliklərini yerinə yetirmir, bir dindən olduqları qardaşlarını müsəlman Azərbaycanı ilə üzbəüz tək qoyurlar. Öz boyunlarından məsuliyyəti tam atmaq üçün erməni mediası qızdırmalı ağlaşma qopardıb Rusiyanı ittiham etdi ki, o, Ermənistanı satdı və onun müdafiəsini və təhlükəsizliyini təmin etmək niyyətində deyil. Erməni siyasiləri məhz növbəti dəfə də Rusiyaya "atmağa" və onu sadə ermənilərin maraqları ilə birlikdə daha baha satmağa cəhd edirlər. Paşinyan rejiminin məhz belə ambisiyalı ittihamları son hərbi gərginləşmənin əsl mahiyyətini açmağa imkan yaradır. Bununla Paşinyan məsuliyyəti üzərindən atmağa çalışır. Amma bu, ona da, Ermənistana da baha başa gəlir". Hesab edilir ki, Azərbaycanın növbəti sərt zərbələri Paşinyan iqtidarının sonunu daha tez yaxınlaşdıracaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**